Xalq qəzeti .- 2022.- 22 dekabr.



# Mədəniyyət paytaxtımız dünyaya qucaq açıb




**Başa çatmaqda olan il Azərbaycanda "Şuşa ili" elan edilmişdir. Şəhərin işğaldan azad edilməsindən dərhal sonra orada infrastrukturun yenidən qurulması ilə yanaşı, mədəniyyət abidələrinin bərpasına da başlanmışdır. İki ildir ki, mədəniyyət paytaxtımızın həqiqi tarixi simasının bərpa edilməsi istiqamətində genişmiqyaslı layihələr həyata keçirilir.**

Şuşa üçün hazırlanan Baş planda mədəniyyət abidələrinə xüsusi diqqət yetirilməsi şəhərin tezliklə əvvəlki ehtişamına qaytarılacağından xəbər verir. Molla Pənah Vaqifin büstünün və muzey-məqbərə kompleksinin əvvəlki görkəminə qaytarılması, Bülbülün ev muzeyinin və Üzeyir Hacıbəylinin heykəlinin bərpası, eləcə də şəhərdəki digər tarixi, mədəni abidələrin restavrasiyası yenidənqurma prosesinin ən önəmli hissələrindən hesab edilir. Bəs "Şuşa İli" hansı əlamətdar mədəni-kütləvi hadisələrlə yadda qalacaq?

İlk növbədə, "Xarıbülbül" beynəlxalq folklor festivalını qeyd etmək lazımdır. Bu ənənəvi tədbir Mədəniyyət Nazirliyi, Heydər Əliyev Fondu, Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsinin təşkilatçılığı ilə inişil və bu ilin may ayında təşkil edildi. "Vaqifin Poeziya Günləri", "Şuşanın 4 fəsli" adlı, "Şuşa-2022" beynəlxalq incəsənət və fotoqrafiya festivalları, "Televiziya Muğam Müsabiqəsi–2022"nin final mərhələsinin və qaliblərin Qala-konsertinin Şuşa şəhərində keçirilməsi bu qəbildən olan layihələrdən bir neçəsidir. Ümumiyyətlə, "Şuşa ili" üçün Prezident İlham Əliyevin sərəncamına əsasən tədbirlər planı hazırlanmışdır. Xurşidbanu Natəvanın 190 illiyinə həsr olunmuş silsilə tədbirlərin, Şuşa ili"nə həsr edilmiş və Şuşada keçirilməsi nəzərdə tutulan layihələr üzrə qrant müsabiqənin, "Şuşa ili"nə həsr olunmuş çövkən oyunu üzrə turnirin, "Wonderland Azerbaijan 2022" beynəlxalq skaut düşərgəsinin, Xurşidbanu Natəvanın anadan olmasının 190 illiyinə həsr olunmuş şahmat turnirinin, məktəblilər arasında "Könlüm keçir Qarabağdan" adlı respublika incəsənət fənn müsabiqəsinin yekun mərhələsinin Şuşa şəhərində keçirilməsi bu planın əsas tərkib hissələrindən idi.

Bundan əlavə, "Şuşa ili" çərçivəsində "İşıq festivalı. Şuşa" adlı audiovizual layihə, eləcə də Azərbaycan Dövlət Film Fondunda saxlanılan Şuşa ilə bağlı film və çəkilişlərin bərpası və nümayişi təşkil edilmişdir. Şuşaya həsr edilən ensiklopediyanın nəşrə hazırlanması və müxtəlif dillərə tərcümə edilməsi, yerli və xarici mütəxəssislərin iştirakı ilə Şuşaya həsr olunmuş elmi-tədqiqat işlərinin aparılması, məqalə, elmi əsər, monoqrafiya, antologiya və s. nəşr olunması da tədbirlər planına daxil olan digər önəmli məsələlər idi.

"Şuşa ili" ilə əlaqədar xatirə və internet resurslarının hazırlanması prosesi də uğurla davam etdirilir. Şəhərin 270 illiyi münasibətilə "xatirə nişanı"nın təsisi, Şuşanın simvollarından bəhrələnməklə hazırlanan müxtəlif poçt markaları və "Azərbaycanın mədəniyyət paytaxtı – Şuşa" internet portalının yaradılması bu istiqamətdə görülən işlərdən bir hissəsidir. Burada həmçinin, ekoloji terrorun qarşısını almaq və şəhərin təbii canlılığını özünə qaytarmaq üçün "Yaşıl qurşaq" yaratmaq məqsədilə ağacəkmə və meşələrin bərpası layihəsini qeyd etmək lazımdır.

Ümumiyyətlə, mədəniyyətimizin beşiyi olan Şuşa şəhərinin bütün istiqamətlərdə bərpa edilməsi üçün intensiv işlər görülür. 2022-ci ilin ölkəmizdə "Şuşa ili" elan edilməsi və bu istiqamətdə görülən işlər, bir daha onu deməyə əsas verir ki, şəhərin əvvəlki ruhunun qaytarılması həm xalq, həm dövlət səviyyəsində ən aktual məsələlərdən biridir.

Gələcək illərimiz rəsmən "Şuşa ili" olmasa da, könlümüz-gözümüz daim Şuşa ilə dolacaq. Həm də bu tac-şəhər gələn il "Türk dünyasının mədəniyyət paytaxtı" kimi dünyanı heyran qoyacaq. 2022-ci il martın 31-də Türkiyənin Bursa şəhərində keçirilən Beynəlxalq Türk Mədəniyyəti Təşkilatına üzv ölkələrin Mədəniyyət Nazirlərinin Daimi Şurasının növbədənkənar iclasında Şuşa şəhəri 2023-cü ildə türk dünyasının mədəniyyət paytaxtı seçilib. Buna əsasən Prezident İlham Əliyev Şuşanın "Türk dünyasının mədəniyyət paytaxtı" elan edilməsi ilə bağlı tədbirlər haqqında sərəncam imzalayıb. Yəni, Şuşasız nəinki bir ilimiz, heç bir günümüz də olmayacaq.

***İmran ƏLİYEV,***
***"Xalq qəzeti"***